**Rabitə xidmətlərinə görə borcun olmaması barədə arayış**

"Elektron Hökumət" portalının təqdim etdiyi " Rabitə xidmətlərinə görə borcun olmaması ilə bağlı arayış " elektron xidmətindən istifadə edərək vətəndaşlar rabitə xidmətlərinə görə borcun olmaması ilə bağlı arayışı elektron formada əldə edə bilərlər. Bunun üçün istifadəçi www.e-gov.az portalında "Elektron Arayışlar" menyusunda yerləşən "Rabitə xidmətlərinə görə borcun olmaması barədə arayış" elektron xidmətinə daxil olmalıdır. (Şək.1)




Şəkil 1

Xidmətə daxil olunan zaman sistem istifadəçidən portaldan autentifikasiyadan keçmək tələb edəcək. Bu zaman istifadəçiyə 5 autentifikasiya növü təqdim olunur. (Şək. 2)




Şəkil 2

Növbəti mərhələdə artıq sistem öz istifadəçisini indetifikasiya etdiyi üçün birbaşa olaraq elektron arayış formasını yaradaraq istifadəçiyə təqdim edir. Elektron arayışda sənədin nömrəsi, verilmə tarixi, vətəndaşın tam adı, qeydiyyatda olduğu ünvan, ünvanda qeydiyyatda olan telefon nömrəsi və hansı tarixə (vaxt da qeyd edilir) rabitə borcun olmamamsı barədə məlumat öz əksini tapır. İstifadəçi "Çap" düyməsini seçməklə elektron arayışı kağız formada çap edə biləcək. (Şək. 3)


Geri Çap

Elektron Hökumət Portalı

Sənəd Elektron hökümət portalı tərəfindən hazırlanıb

www.e-gov.az 157

Sənədin nömrəsi:

Verilmə tarixi: 21.04.2015

**Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi**

**Vətəndaşın rabitə xidmətlərinə görə borcu olmaması barədə elektron arayış**

Verilir ________ ondan ötrü ki,o

həqiqətən ________

ünvanında qeydiyyatda olan ________ saylı telefonun abunəçisidir

21.04.2015 11:29 tarixinə rabitə xidmətləri üçün borcu yoxdur.

* Ştrix kodlar arayışın sistem nömrəsini əks etdirir.

*Elektron sənədin doğruluğunu www.e-gov.az portalında yoxlaya bilərsiniz.*

Şəkil 3

Elektron arayışın aşağısında əks olunan ştrix kodlar arayışın sistem nömrəsini əks etdirir və bu ştrix kodlardan istifadə edərək arayış təqdim olunacaq təşkilat sənədin həqiqiliyini yoxlamaq imkanı əldə etmiş olacaq. Həmçinin istifadəçi portalin təqdim etdiyi " Portal üzərindən verilmiş arayışların yoxlanılması" elektron xidmətinə daxil olaraq arayışın ştrix kodunu tələb olunan sahəyə daxil edib öz elektron arayışına yenıdən baxmaq imkanını əldə etmiş olur.

İstiafadəçinin rabitə xidmətlərinə görə borcu olan zaman bu haqda sistem tərəfindən ona məlumat bildirilir. (Şək. 4)




Şəkil 4